*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 1* *ISSN 2663-4368*
*Səhifə: 194-201* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4368.2023.1.194*

***Folklorşünaslıq***

# Keçmişdən bu günə Azərbaycanda mövlud mərasimi

**Məleykə Məmmədova**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Folklor İnstitutu. Azərbaycan.
E-mail: mmeleyke@gmail.com

**Annotasiya.** Mövlud ərəbcə "Vəladət" sözündən olub mənası anadanolma, doğum yeri, insanın doğulduğu yer, Hz. Məhəmmədin anadan olmasından, həyatından bəhs edən məsnəvi, bu məsnəvinin oxunduğu dini mərasim mənasına gəlir. İslami ədəbiyyatda müstəqil bir janr olaraq bilinən Mövlud zaman içində bu janrdakı əsərlərə verilən ümumi bir ad kimi tanınmışdır. "Peyğəmbərin doğum günü" mənasına gələn Mövludun Türkiyədə xalq arasında Mevlit, Mevlüt, Mevlüd, Azərbaycanda Mevlid, Möhlüt, Mövlud, Möölüd, Mövlidiyə və s. kimi söyləndiyi də məlumdur.
Mövlud ənənəsi həm Şimali, həm də Cənubi Azərbaycanda bölgələrdə geniş yayılmışkən, günümüzdə Azərbaycanın demək olar ki, hər bölgəsində həm evlərdə, həm də məscidlərdə Peyğəmbər Əfəndimiz (s.a.s) üçün rəbi`ül-əvvəl ayında qeyd olunur. Çeşidli arzu və niyyətlər üçün keçirilən Mövlud xüsusi günlərdə, imamlar – Hz. Əli və Hz. Fatimə və digər müqəddəslər üçün isə daha çox Məhərrəm ayında keçirilir.
Məqalədə "Mölud" sözünün nə mənaya gəldiyi, Azərbaycanda olan Mövlud ənənəsinin keçmişdən bu günə necə qeyd olunduğu və necə keçirildiyi təsvir olunmuşdur. Eyni zamanda həm Şimali, həm də Cənubi Azərbaycanda Mövlud mərasiminin daha çox hansı bölgələrdə daha geniş keçirildiyi söyləyicilərdən toplanan məlumatla birgə yazılı qaynaqlardan da araşdırılaraq verilmişdir. Digər bölgələrə görə, ən çox fərqlilik göstərən Şəki zonasındakı Mövlud mərasimində müəyyən inancların gerçəkləşdiyinə inanıldığı rituallar da tədqiqatda öz yerini almışdır.
**Açar sözlər:** Peyğəmbər, Azərbaycan, Mövlud, mərasim, adət-ənənə

**Məqalə tarixçəsi:** göndərilib – 23.01.2023; qəbul edilib – 14.02.2023

# The mawlid ceremony in Azerbaijan from past to present

**Maleyka Mammadova**
Doctor of Philosophy in Philology
Institute of Folklore of ANAS. Azerbaijan.
E-mail: mmeleyke@gmail.com

**Abstarct.** Mawlid derives from the Arabic word "Valadet" and means birth, place of birth, place of birth of a person, the masnavi describing the birth and life of the Prophet Muhammad, and the religious ceremony in which this masnavi is recited. Mawlid, which is known as an independent literary genre in Islamic literature, has become a common name given to such works over time. It is

seen that the word Mawlid, which means the "birthday of the Prophet", is used among the people in Turkey as Mevlit, Mevlüt, Mevlüd, and in Azerbaijan as Mevlid, Möhlüt, Mövlüdiye, Mövlud, Möölüd, Mövlidiye and in other ways.
While the tradition of Mawlid was more common both in Northern Azerbaijan and in Southern Azerbaijan, in areas where there used to be more Sunni communities, today it is celebrated in almost every region of Azerbaijan, both in homes and in mosques, in the month of Rabi`ul-Awwal for our Prophet, regardless of Sunni-Shia. It is seen that Mevlid, which is performed for various wishes and intentions, takes place mostly in Muharram on special days for our important religious elders such as Imams, Hazrat Ali and Hazrat Fatima and so on.
In the article, it is described what the word "Mawlid" means, how the Mawlid tradition in Azerbaijan has been celebrated from past to present and how it is done. At the same time, information about which regions the Mevlit ceremony is celebrated most commonly in both Northern and Southern Azerbaijan was given by taking knowledge from the source persons and by researching from written sources. The rituals in which some beliefs are believed to be realized in the Mawlid ceremony in Sheki region, which is the most different from other regions, were also included in the research.
**Keywords:** Prophet, Azerbaijan, Mawlid, ceremony, customs and tradition

**Article history:** received – 23.01.2023; accepted − 14.02.2023

## Giriş / *Introduction*

Allah qatında yer üzünə gələn insanların ən əzizi, axir zaman nəbisi olan Peyğəmbər Əfəndimizdir. Dini kitablardan sonuncusu olan Qurani-Kərim də Məhəmməd Peyğəmbərə (s.a.s.) göndərilmişdir. Allahın bütün insanlardan üstün tutduğu Peyğəmbərimizin dünyaya gəlişi də digər peyğəmbərlərdən və insanlardan fərqli olmuşdur. Əxlaq, davranış və söylədiklərilə bütün bəşəriyyət üçün kamil nümunə olan Peyğəmbərimizi ümməti ölümündən sonra da unutmamış, doğum günündə bir yerə toplaşaraq onu anmış və dualar, salavatlar oxumuşlar. Eyni zamanda onun doğumu, uşaqlığı, peyğəmbərliyi ilə bağlı rəvayət və hekayələr nəql edərək hörmət və sevgilə anmışlar. Zaman keçdikcə Peyğəmbərimizin doğum günü daha da coşqulu qeyd edilmiş, törən və mərasimlər təşkil edilmişdir. Bu mərasimlərə Mövlud adı verilmişdir. Mövlud sözünün mənası ərəbcə lüğətlərdə doğum, doğma, doğum yeri, insanın doğulduğu yer, Hz. Məhəmmədin doğumundan, həyatından bəhs edən məsnəvi, bu məsnəvinin oxunduğu dini mərasim mənasına gəlir.

## Əsas hissə / *Main Part*

İslam ədəbiyyatında müstəqil bir ədəbi növ olaraq bilinən Mövlud, Məhəmmədin doğum günündə keçirilən mərasimlərə və bu mərasimlərdə oxunmaq üçün yazılan və bəstələnən mənzum formadakı ədəbi mətnlərə verilən isimdir. Ərəbcə "doğmaq", "doğum zamanı", "doğum yeri" mənasındakı "vəladət" kəlməsindən əmələ gələn Mövlud, zaman içində bu janrdakı əsərlərə verilən ortaq bir ad halına gəlmişdir. "Peyğəmbərin doğum günü" anlamına gələn Mövlud Türkiyədə xalq arasında Mevlit, Mevlüt, Mevlüd, Azərbaycanda Mevlid, Möhlüt, Mövludiyə, Mövlud, Möölüd, Mövlidiyə və s. şəkildə də işlənir. Ədəbi bir termin olaraq "Mövlud", Məhəmməd Peyğəmbərin doğumunu, həyatından qısa pasajları, möcüzələrini anladan məsnəvi üslubundakı mətnlərin hamısına verilən addır. Bu janrın ən tanınmış nümunəsi, Süleyman Çələbinin XV əsr tarixli "Vəsilətün-Nicat" ("Qurtuluş vəsiləsi") adlı türkcə mənzum əsəridir. Sözügedən əsərin yazılı nüsxələri ümumiyyətlə "Mövlud" və ya "Mevlid" başlığı-

nı daşıdığından, bu adlarla bilinməkdədir. Türkcə olduğu kimi, ərəbcə, Azərbaycan türkcəsində, kürdcə, arnavutca, avarca və s. dillərdə də mövludlar yazılmışdır.

**Mövlud keçmişdən bu günə**. Bilindiyi kimi, Azərbaycan yetmiş il Sovet hakimiyyətinin idarəçiliyi altında olduğu üçün bir çox dini mərasimlərin təşkil edilməsinə qadağa qoyulmuşdu. Buna rəğmən kənd yerlərində, camilərdə önəmli dini günlər gizli də olsa, yaşadılmışdır. Camilərdə, məscidlərdə camaatın toplaşmadıqları zamanlar isə evdə önəmli günlər böyük ailələrdə qeyd olunmuş, dini söhbətlər edilmiş və o günün şərəfinə xörəklər bişirilərək qonum-qonşuya ehsanlar göndərilmişdir. Mövlud ənənəsi də ta qədimdən bəri beləcə davam edilərək yaşadılmışdır. Mövlud qəndillərində insanlar evlərində o günü yaşamışlar. Peyğəmbərimizi anmış, onunla bağlı hekayə və rəvayətləri uşaqlarına nəql etmişlər, halva, plov bişirərək, süfrə başına yığışıb o günü anaraq Peyğəmbərimizə dualar etmiş, salavat göndərmişlər. Sovet hakimiyyəti dağıldıqdan sonra isə müstəqilliyinə qovuşan Azərbaycan xalqı dini günləri və mərasimləri məscidlərdə daha çox insanın iştirakı ilə geniş formada qeyd etməyə başlamışlar. Araşdırmalarımızdan gəlinən qənaətə görə, indi Azərbaycanın demək olar ki, hər bölgəsində Mövlud mərasimləri keçirilməyə başlanmışdır. Xüsusilə Şəki-Zaqatala bölgəsində (Şəki, Qax, Zaqatala və Balakən) daha çox Peyğəmbərimizin Mövlud mərasimi həm məscidlərdə, həm də evlərdə keçirilir. İmişlidə isə söyləyicilərdən Məmiyeva Ülviyyənin [S11] verdiyi məlumatlara görə, sadəcə, Peyğəmbərimizin deyil, Peyğəmbərimizin qızı Fatimeyi-Zəhra və həyat yoldaşı Hz.Əli və imamlarımızın da doğum günləri anılır, məscidlərdə dualar, mədhiyyələr, mərsiyələr oxunur, salavat və zikrlər edilir, dini söhbətlərə qulaq asılır, ehsan olaraq çay süfrəsi açılır. Eyni vəziyyət şiə camaatının olduğu Lənkəran bölgəsi üçün də keçərlidir. Cənubi Azərbaycanda yaşayan əhalinin çoxu şiə olduğuna görə, burada Mövlud mərasimini keçirənlərin daha çox sünni olan Urmiyə və kürdlərin yaşadığı Qərb bölgəsi olduğunu folklorşünas araşdırmaçılardan [S1; S3; S5] aldığımız məlumatlara əsasən qeyd edə bilərik. Anlaşılan odur ki, zamanla dəyişən rejimlə, camaatın dini yaşamasında Türkiyə və ya İran münasibətlərindən asılı olaraq mərasimlərin keçirilməsində təriqətlərin və məzhəblərin təsiri böyük olmuşdur. Cənubi Azərbaycandan olan Kərimli Məryəmin [S7] verdiyi məlumatlara görə, Mövlud verən adam maddi vəziyyətinə uyğun olaraq süfrə açır; plov, çeşidli meyvələr və ya sadəcə çayla qənd, xurma və s. ehsan verir. Cənubi Azərbaycandan olan folklor araşdırmacısı Əhəd Fərəhməndi [S5] Cənubi Azərbaycanda Mövlud mərasimlərinin keçirildiyini qeyd edir. Ən geniş olaraq isə Peyğəmbər Əfəndimizin, İmam Zamanın və Hz. Əlinin Mövludunun keçirildiyini vurğulayan söyləyici digər imamlar üçün də edildiyini və bunlar qədər geniş olmadığını bildirmişdir. Mövlud mərasimi kim üçün edilirsə, ona mədhiyyələr oxunduğunu və mərasimin sonunda şərbət, şirniyyat və b. ehsanlar verilir. Folklorşünas araşdırmaçı Əlirza Sərrafinin [S3] söylədiyinə görə, Cənubi Azərbaycan əhalisinin əksəriyyəti şiə olduğuna görə, Peyğəmbərin Mövludunu qədimdən keçirməzlərdi, son zamanlarda isə qadınların "Mövlidiyə" adıyla mərasim təşkil etdiyini, qaval çalaraq öz aralarında mədhiyyələr oxuduğunu qeyd edir.

Mövlud mərasimi həm Şimali Azərbaycan, həm də Cənubi Azərbaycanın demək olar ki, hər bölgəsində, həm evlərdə, həm də camiə və məscidlərdə Peyğəmbər Əfəndimiz (s.a.s) üçün Rəbi`ül-əvvəl ayında qeyd edilir. Müxtəlif dilək və niyyətlər üçün edilən Mövlud xüsusi günlərdə, imamlar, Hz. Əli və Hz. Fatima və s. din böyüklərimiz üçün daha çox Məhərrəm ayında gerçəkləşdiyi məlumdur.

**Mövlud mərasiminin keçirilməsi.** Mövlud – Peyğəmbərimizin (s.a.s) doğum tarixinə verilən xüsusi addır. Hicri təqvimlə Rəbi`ül-əvvəl ayının 12-si türk-müsəlman aləmində bu önəmli gün inananlar tərəfindən təntənəli qeyd edilir. Ümumiyyətlə, Mövlud mərasimi Mövlud qəndilində, Peyğəmbərimizin doğum günündə keçirilsə də, Azərbaycanın bir çox bölgəsində fərqli olaraq xüsusi günlərdə, qismən orucluqda da icra edildiyi bilinir. Söyləyicilərdən alınan məlumatlara görə, Peyğəmbər Əfəndimiz üçün keçirilən Mövlud mərasimi Rəbi`ül-əvvəl ayında, müxtəlif məqsədlər üçün keçirilən Mövlud isə insanların niyyətlərinin gerçəkləşdiyi – bir körpənin doğumundan sonra, yeni evə köçdük-

də, hərbi xidmətə gedib qayıtdıqda, xəstələr sağalanda, uşaqlar yaxşı bir universitetə qəbul olduqda və bu kimi xüsusi günlərdə qohum-əqrabalar, qonşular bir yerə yığışıb yemək süfrəsi açır, Mövlud mərasimi keçirir. Bu tip Mövlud mərasimi hər hansı bir niyyətin gerçəkləşməsi nəticəsində dualar oxunmasıyla, ehsan verilməklə, Allaha şükürlər edilərək keçirilir. Bu cür niyyət mövludları insanların seçdiyi, uyğun gördüyü günlərdə icra edilir. Həm Peyğəmbərimiz, həm müxtəlif niyyətlər üçün verilən mövludların keçirilməsi və orada söylənən ilahilər, oxunan dua və zikrlər baxımından bənzərlik göstərir. İmamlar və din böyüklərimiz üçün keçirilən mövludlarda isə daha çox mövlud verilən şəxslərə uyğun dua və zikrlər, mərsiyələr oxunur, hekayə və rəvayətlər danışılır, Quran oxunaraq hamısının ruhuna fatihələr bağışlanıb yad edilir. Türkiyədə keçirilən Mövlud mərasimlərində Uşaq Mövludunda bəhrlər arasında oxunan ilahilər uşaq və anayla əlaqəlidir, Peyğəmbərimiz üçün edilən Mövlud isə daha çox Peyğəmbərimizlə bağlı ilahilər və dini rəvayətlərdən ibarətdir. Azərbaycanda, xüsusilə Şəki-Zaqatala bölgəsində keçirilən Mövlud mərasimləri isə folkorşünas Ləman Süleymanovanın [3, s.118; 4, s.114] və ilahiyyatçı Rövşən Məmmədovun [S10], söyləyicilərdən İsrafilova İlşadın [S6] da qeyd etdiyi kimi, həm çeşidli niyyətlər, həm də Peyğəmbərimiz üçün verilən mövludların keçirilməsi və orada oxunan ilahilər, söylənən zikrlər eynidir, sadəcə, keçirildiyi vaxt fərqlidir. Dilək, niyyət, xüsusi günlər üçün olan mövludların zamanını isə bunu edən insanlar müəyyənləşdirir, Peyğəmbərimiz üçün olan mövludlar, ümumiliklə Peyğəmbərimizin doğum günü və doğum ayında təşkil edilir.

Məscidlərdə və ya evlərdə keçirilən Mövlud mərasimindəki istər yemək, istərsə də çay süfrəsinin çeşidliliyi mövludu verən adamın maddi durumuna görədir. Amma ümumi olaraq, şərbət, süd, çay kimi ehsanlar verilir. Bəzən iştirakçılar da özləri ilə müəyyən şeylər gətirirlər. Hətta kənd camaatı birlikdə pul toplayaraq Mövludu bərabər də keçirir. Bu, insanların seçimilə bağlıdır. Önəmli olan bu ənənəni davam etdirməkdir. Maddi durumun bəhanə edilməsi xoş qarşılanmaz. Sadəcə xurma və çay süfrəsi də açıla bilər. Xüsusilə Mövlud ənənəsinin həmişə yaşandığı Şimal-Qərb bölgəsində ildə bir dəfə yerinə yetirilməsinin vacibliyi xüsusi vurğulanmışdır [3, s.218]. Şəki bölgəsində söylənən rəvayətə əsasən, Peyğəmbərimiz anadan olarkən Əminə anamıza Allah tərəfindən şərbət göndərildiyi nəql edildiyi və yeni doğulan uşağın son nəbi olmasının muştuluğu üçün noğul verilməsi, ətrafın nura qərq olmasının simvolu olaraq da şam yandırılması mövludların olmazsa olmazı üçlüsü halına gəlmişdir; yəni şərbət, şam, noğul mütləq olmalıdır [5, s.269]. Amma istər keçmişdə olsun, istərsə də günümüzdə keçirilən Mövlud mərasimlərindəki ehsanların çoxluğu və ya azlığı maddi vəziyyətlə əlaqəlidir.

Mövluda çağırılan insanların sayı da mərasimi təşkil edən ev sahibinin maddi vəziyyətilə bağlıdır. Yüz nəfər də iştirak edə bilər, daha az adam da, hətta maddi vəziyyəti yaxşı deyilsə, sadəcə, öz ailəsi üçün də mövlud verə bilər. Bir çay süfrəsi belə ehsan niyyətinə keçir [S2; S6]. Əsas olan zikrlər və dualar edilməsi, Peyğəmbərimizin anılmasıdır. Hətta ədəbiyyatçı prof.Tahirə Məmmədin [S8] verdiyi məlumata görə, qədimdən Naxçıvanda Sovet rejimi zamanı bəzi ailələr öz aralarında o günü anarlarmış. Öz anasının elədiyi kimi, folklora və adət-ənənələrimizə bağlı olan bir çox insan öz evində yemək bişirərək qoxu çıxarar, dualar, salavatlar, zikrlər oxuyardı, hazırlanan plovdan ehsan olaraq qonşulara paylanardı. Naxçıvan, xüsusilə Naxçıvanın Ordubad rayonu və kəndləri hər zaman dini mərasimlərinə, adət-ənənələrinə ən çətin zamanlarda belə sahib çıxmışdır. Yenə söyləyicilərdən [S4] aldığımız məlumata görə, Ordubadın kəndlərində də Mövlud mərasimləri keçirilir. Naxçıvanda şəhərdə məscidlərdə də son zamanlar Mövludların keçirilməsi ənənəsində canlanma müşahidə edilir [S12].

Azərbaycanın Şimal-Qərb bölgəsində Mövlud ənənəsi yüz illərdir davam edir. Sovet rejiminin ən qatı dövrlərində ən yaşlı dindar kişilər kənddən uzaqda meşələrdə və ucqar kənd yerlərində belə dini mərasimləri təşkil etmiş, Mövlud ənənəsini yaşatmağa çalışmışlar.

Söyləyicilərin [S10] verdiyi məlumata görə, Zaqatala bölgəsində Peyğəmbərimizin (s.a.s) anadanolma tarixi ilə bərabər, insanlar oğlunu hərbi xidmətə yollayarkən, əsgərlikdən gəldik-

də, uşağı universiteti bitirincə, ağır xəstəlikdən və ya əməliyyatdan sağ-salamat qurtulunca, yeni evə köçdükdə və ya ev aldıqda, hər hansı bir arzu dilədikdə də Mövlud mərasimləri keçirirlər.

Zaqatalada Mövlud mərasimlərində, ümumiyyətlə, Süleyman Çələbinin yazmış olduğu Mövlud oxunur. Bununla bərabər, Yunis Əmrənin şeirləri də ilahi şəklində oxunur. Türkiyədə Mövlud məqamla oxunarkən, Zaqatalada xor şəklində və sürətli oxunur. Xorda ən azı üç nəfər iştirak edir. Ümumilikdə isə 5-6 nəfər iştirak edir. Yerli əhali uşaqlıq illərindən Mövlud mərasimlərində iştirak etdiklərindən, oxunan ilahi bəhrlərini qismən əzbər bildiklərindən onlar da oxuyanları müşayiət edirlər.

Mövlud mərasiminin girişində molla ev sahibinin arzu-diləyini dilə gətirdikdən sonra Mövlud oxumağın səbəbini izah edir. Daha sonra xocalardan bir nəfər Qurani-Kərimdən qısa əşır oxuyur. Sonra camaat tərəfindən 100 dəfə "La ilahə illallah" zikri çəkilir. Ondan sonra Yunis Əmrədən və digər Haqq dostlarının şeirlərindən ilahilər oxunur. Daha sonra isə Qurani-Kərimdən təkrar qısa əşır oxunur. Süleyman Çələbinin Mövlud əsərindən çeşidli bəhrlər oxunur. Molla Mövludun önəmindən danışır, Peyğəmbərimizin (s.a.s) həyatıyla bağlı müəyyən mövzulardan bəhs edir. Ardınca "Ey Xudadan lütfü-ehsan istəyən", – deyərək "Tövhid bəhri" və "Vəsiyyət" oxunur. Bu bəhr oxunduqdan sonra Süleyman Çələbinin ruhuna "Fatihə" oxunub bağışlanır. Sonra ardınca "Viladət bəhri", "Mərhaba bəhri" və ən sonda təkrar Qurani-Kərimdən bir əşır oxunur. Son olaraq uzun bir dua oxunur.

Viladət bəhrinə keçmədən öncə şəkər, su və ya süd, bəzən də bal qarışdırılaraq şirin şərbət hazırlanır. Mövludun duası bitdikdən sonra şərbət paylanılır. Daha sonra yemək süfrəsi açılır.

Zaqatalada Avar dilində Mustafa Mövludu də oxunur. Zaqatala–Balakən bölgəsində oxunma forması demək olar ki, eynidir. Eyni zamanda Şəkidə, Qəbələdə oxuma üslubunda və sıralamasında fərqliliklər olsa da, bənzərliklər də vardır. Bununla bərabər, Şimal rayonlarında (Quba, Qusar) Mövlud ənənəsinin davam etdiyi müşahidə edilir. Fəqət Azərbaycanda Zaqatala və Şəki bölgəsində daha geniş yayılmışdır. Ağdaş bölgəsində isə sadəcə, Peyğəmbərimizin (s.a.s) doğum günündə Mövlud mərasimində oxuyurlar və daha sonra hazırlanmış şərbət kənd camaatına paylanır. Quba rayonunda da Peyğəmbərimizin anadan olduğu gündə və yeni evə köçdükdə, ev aldıqda Mövlud mərasimi təşkil edilir. Qəbələ rayonunda isə ümumi olaraq qadınlar arasında Mövlud mərasimi keçirildiyi söyləyicilərin verdiyi məlumatlar arasındadır [S10].

Mövlud mərasimi Balakən, Zaqatala, Qax bölgəsində digər dini mərasimlərdən həm daha geniş yayılması, həm də özünəxas xüsusiyyəti ilə fərqlənir. Balakən və Zaqatala bölgəsində Mövlud mərasimini keçirməyən hər hansı bir ailəyə və ya tayfaya rastlanmaz, ümumilikdə hər kəs tərəfindən təşkil olunur. Bu bölgələrdə həyata keçirilən Mövlud mərasimində Yunis Əmrədən "İlahilər", ardından Mövlud duası oxunur. Mövludda iştirak edənlərə şərbət paylanır. İçilən şərbətin cənnətdəki abi-kəvsər və zəmzəm suyu kimi müqəddəs olduğuna inanılır. Duadan sonra ev sahibi öncə əl yumaq üçün su gətirir, süfrə açır, halva ilə çay, sonra isə yemək ehsan verilir. Bu bölgənin sevimli yeməyi olan çığırtma, balqabaqlı lobyalı plov, yaxud kənarları naxışlı xəngəl bişirilir. Belə dini məclislərdə verilən ehsanlar Allah yolunda verilən sədəqə yerinə keçdiyinə inanılır [1, s.35].

Azərbaycanın digər bölgələrindən fərqli olaraq, Şəkidə keçirilən Mövludda dünyanın nura boyanmasının simvolu olan şamın yandırılmasıyla bərabər, Mövludun sonunda bəzi diləklərin gerçəkləşəcəyinə inanıldığı ritualların da yerinə yetirildiyi məlumdur. Xalq inanclarını öyrənmək baxımından da bu rituallar əhəmiyyət kəsb edir. Folklorşünas dos. Ləman Süleymanovanın [3, s.121] topladığı bu inanclardan bəzilərini nümunə olaraq göstərə bilərik: Şəki bölgəsində keçirilən Mövlud sonrasında Mövlud süfrəsini uşağı olmayan qadının və ya evlənməyən qızın başına silkələməklə qadının uşağı olacağına, qızın da ərə gedəcəyinə inanırlar. Bu ritual niyyət edilən insanın xəbəri olmadan anidən yerinə yetirilir. Dilәkləri gerçəkləşəcəyi təqdirdə gələn il özlərinin də Mövlud verəcəklərinə niyyət edilir. Başqa bir ritualda isə uşağı olmayan qadınla, ərə getmək istəyən qıza süfrədə qalan düyüdən 7 ədəd alınıb niyyət

edənlərə yedirilir. Eyni zamanda uşağı olmayan qadına yandırılmış şamlardan üçünü yedirirlər ki, uşağı olsun. Yandırılan şamlardan kiminki tez yanıb bitsə, ömrünün qısa olacağına inanılır. Kimin şamı da tam yanmayıb sönərsə, qalan qismini niyyət tutub evə aparır və diləyi gerçəkləşdiyində, gələn il Mövlud verəcəyini vəd edir.

Mövlud mərasimləri ümumilikdə kişilər arasında məscidlərdə və ya evlərdə edilsə də, qadınların da öz aralarında keçirdikləri müşahidə olunur. Xüsusilə Uşaq Mövludunu qadınlar daha çox öz aralarında keçirirlər. Kişilərin evlərdə yığışaraq keçirdikləri mövludlarda iç-içə iki otağın birində kişilər, digərində qadınlar oturub mövludu dinləyirlər. Bu zaman səsin yaxşı getməsi üçün ara qapı açıq qoyulur. Bəzən də iç-içə otaq mümkün olmadığı zaman böyük bir otaq pərdə ilə ikiyə ayrılaraq mərasim keçirilir. Bu cür məclislərdə qadınlar sadəcə, dinləyici kimi iştirak edə bilər və öz səslərini eşitdirməzlər. Mərasimin uzun və ya qısa çəkməsi isə iştirakçıların həvəsinə bağlıdır [S2; S13].

## Nəticə / *Conclusion*

İstər Peyğəmbər Əfəndimiz, istərsə də önəmli din böyüklərimiz, 12 imam və müxtəlif niyyət və diləklər üçün keçirilən Mövludlar həm Mövlud ənənəsinin yaşadılması, həm də mədəniyyətimizə, dini dəyərlərimizə, adət-ənənələrimizə sahib çıxmaqla bərabər, insanlar arasında sevgi və hörməti, sosiallaşmağı da qüvvətləndirir.

## Mövlud məclisində oxunan mətnlərdən parçalar

### TÖVHİD BƏHRİ

*Allah adın zikr edəlim əvvəla*
*Vacib oldur cümlə işdə hər qula.*
*Allah adın hər kim ol əvvəl ana*
*Hər işi asan edər Allah ona*
*Allah adı olsa hər işin başı*
*Hərgiz əbtər olmaya onun sonu*
*Hər nəfəsdə Allah adın de müdam*
*Allah adıyla olur hər iş tamam*
*Bir kəs Allah desə eşq ilə lisan*
*Tökülür cümlə günah misl-i xəzan*
*İsm-i pakin pak olur zikr eyləyən*
*Hər murada ərişir Allah deyən*
*Eşq ilə gel indi Allah deyəlim*
*Dərd ilə göz yaş ilə eh edəlim*
*Ola kim rəhmət qıla ol padşah*
*Ol kərim-ü ol rəhim-ü ol ilah*
*Birdir ol, birliyinə şəkk yoxdur*
*Gərçi yanlış söyləyənlər çoxdur*
*Cümlə-aləm yox ikən ol var idi*
*Yaradılmışdan qani Cabbar idi*
*Var ikən O, yox idi ins-ü mələk*
*Arş-u fərş-u ay-ü gün həm nuh fələk*
*Sun' ilə bunları O, var eylədi*
*Birliyinə cümlə iqrar eylədi*
*Qüdrətin izhar edib həm ol Cəlil*
*Birliyinə bunları qıldı dəlil*

*“Ol!” dedi bir kərə var oldu cahan*
*“Olma!” dersə, məhv olur ol dəm həman*
*Bəs Muhəmmədir bu varlığa səbəb*
*Sidq ilə onun rızasını qıl tələb.*

**ZİKRƏ DALMIŞ BÜTÜN ALƏM**

*Zikrə dalmış bütün aləm*
*Daim söyler Sübhanallah*
*Arşı Kürsi Levh ü Qələm*
*Söylər daim Sübhanallah*
*Göy üzündə uçan quşlar*
*Bulutlardan axan yaşlar*
*Sıra-sıra dağlar, daşlar*
*Söylər daim Sübhanallah*
*Səhər vaxtı əsən yellər*
*Haqq yolunda dönən dillər*
*Günəşdən qovrulan çöllər*
*Söylər daim Sübhanallah*
*Torpaq üstündə sümbüllər*
*Baxçalarda qonca güllər*
*Şakıyıb ötən bülbüllər*
*Söylər daim Sübhanallah.*

**Ədəbiyyat / *References***

1. Azərbaycan Folklor Antologiyası (2005). XIII kitab (Şəki, Qəbələ, Oğuz, Qax, Zaqatala, Balakən folkloru). – Bakı: Səda.
2. Süleymanova, L.V. (2015). “Azerbaycanın Şeki-Zaqatala Bölgesi Halk Kültüründe Mevlid”. III Uluslararası Halk Kültürü Sempozyumu. – Ankara: Kazan, 8-10 Ekim.
3. Süleymanova, L.V. (2017). “Mövlud Mərasimi”. Dədə Qorqud elmi ədəbi toplu, I (60). – Bakı: Elm və təhsil.
4. Süleymanova, L.V. (2019). “Avar Etnik Mədəniyyəti və Folkloru”. Dədə Qorqud elmi ədəbi toplu, II (60). – Bakı: Elm və təhsil.
5. Şəki Folklor Örnəkləri. (2014). II kitab. – Bakı: Elm və təhsil.

**Söyləyicilər:**

S1. Abbasova Mətanət, 1974. Fuzulidə anadan olmuşdur, ali təhsilli, folklorşünas, azərbaycanlı.

S2. Abdullayeva Aida Ənvər qızı, 1959. Şəkilidir (Babaratma kəndi), orta təhsilli, ev xanımı, azərbaycanlı.

S3. Alirza Sərrafi, 1954. Urmiyədə anadan olmuşdur, ali təhsilli, araşdırmaçı, folklorşünas, Cənubi azərbaycanlı.

S4. Əzimova Qəmər Vəli qızı, 1958. Ordubadda anadan olmuşdur, ali təhsilli, pensiyaçı, azərbaycanlı.

S5. Fərəhməndi Əhəd, 1960. Təbrizdə anadan olmuşdur, ali təhsilli, araşdırmaçı, folklorşünas, Cənubi azərbaycanlı.

S6. İsrafilova İlşad Qara qızı, 1963. Şəkidə anadan olmuşdur, ortatəhsilli, ev xanımı, azərbaycanlı.

S7. Kərimxanlı Məryəm, 1985. Astarada anadan olmuşdur, orta təhsilli, ev xanımı, Cənubi azərbaycanlı.

S8. Məmməd Tahirə Qəşəm qızı, 1960. Naxçıvanlıdır, ali təhsilli, ədəbiyyatçı, azərbaycanlı.
S9. Məmmədova Ulduz Zaməddin qızı, 1960. Şəkilidir, orta təhsilli, ev xanımı, azərbaycanlı.
S10. Məmmədov Rövşən Məmməd oğlu, 1975. Zaqatala rayonunun Muğanlı kəndindəndir, ali təhsilli, ilahiyyatçı, azərbaycanlı.
S11. Məmiyeva Ülviyyə İsfəndiyar qızı, 1975. İmişlidə anadan olmuşdur, orta təhsilli, ev xanımı, azərbaycanlı.
S12. Mədətli Səfa Əzim qızı, 1981. Naxçıvanın Qıvraq kəndindəndir, ali təhsilli, ev xanımı, azərbaycanlı.
S13. Şükür Elnurə Seyfəddin qızı, 1983. Şəkilidir, ali təhsilli, koordinator, azərbaycanlı.

**İnternet Qaynaqları:**

Balaken merkezi mescidinde Movlud. https://www.youtube.com/watch?v=FJmLyhjTtr0
Zaqatala. Aşağı Çardaqlar. Mövlud . https://www.youtube.com/watch?v=VxKTxTsXyC8
Zaqatala Çökək kənd məscidində Mövlud 2-ci hissə. 12-06-2022
https://www.youtube.com/watch?v=Y3n2wLr_N6Q
Zaqatala rayonu Göyəm kənd mövludu. 2-ci hissə. 16-04-2006.
https://www.youtube.com/watch?v=EufxljZaEac
Zaqatala rayon Göyəm kənd mövludu. 15/5-2022-ci il .1-ci hissə.
https://www.youtube.com/watch?v=tV-toQIWMH4

## Церемония мевлюд в Азербайджане от прошлого до настоящего

**Малейка Мамедова**
Доктор философии по филологии
Институт Фольклора НАНА. Азербайджан.
E-mail: mmeleyke@gmail.com

**Резюме.** Мевлюд происходит от арабского слова «виладет» и означает рождение, место рождения человека, маснави, описывающий рождение и жизнь пророка Мухаммеда, и религиозную церемонию, в ходе которой читается это маснави. Мевлюд, известный как независимый литературный жанр в исламской литературе, со временем стал общим названием таких произведений. Видно, что слово Мевлид, означающее «день рождения пророка», используется в Турции как Мевлит, Мевлют, Мевлюд, а в Азербайджане как Мевлид, Мёхлют, Мёвлюдие, Мёвлюд, Мёлюд, Мёвлидие и т.д.

Если традиция мевлюда была более распространена как в Северном Азербайджане, так и в Южном Азербайджане, в районах, то сегодня он отмечается почти в каждом районе Азербайджана, как в домах, так и в мечетях, в месяц Рабиуль-Авваль для нашего пророка Кроме этого имеется Мевлюд, который совершается по разным желаниям и намерениям в особые дни и в том числе в месяце Мухаррам для наших важных религиозных старейшин, таких как имамы, Хазрат Али и Хазрат Фатима и так далее.

В статье описывается, что означает слово «мевлюд», как традиция мевлюд в Азербайджане праздновалась от прошлого до настоящего и как это делается. В то же время информация о том, в каких регионах наиболее часто отмечается церемония мевлюд как в Северном, так и в Южном Азербайджане, была получена путем получения знаний от первоисточников и исследования письменных источников. Обряды, в которых, как считается, реализуются некоторые верования в обряде мевлюд в Шекинском районе, наиболее отличающемся от других регионов, также были включены в исследование.

**Ключевые слова:** пророк, Азербайджан, мевлюд, церемония, традиция